# Hələ çiynimizdədir uğurlu əlin sənin

*(Ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunur)*

Ömrün şirin bir nəğmə,
Həyatın tarix dərsi.
Belə ömür yaşamaq,
Arzusudur hər kəsin.
Qoy bu tarix dərsini,
Bütün cahan oxusun.
Azərbaycan dinləsin,
Azərbaycan oxusun.
Dastanlara sığmayan,
Bir ömrün nəğməsini,
Azərbaycan oxusun.
Dastanlara sığmayan
Hünər salnaməsini.
Azərbaycan dinləsin
Ulu haqqın səsini.
Bu səs sənin səsindi,
Səslənir qulağımda
Quran ayəsi kimi.
Bu səs sənin səsindi,
Oxunur dodağımda
Zəfər nəğməsi kimi.
Bu səs sənin səsindi
Titrədir salonları
Mərmi zərbəsi kimi.
Yenə səni dinləyir
Vətənin, elin sənin.
Hələ çiynimizdədir
Uğurlu əlin sənin.

Sən dağa arxalandın,
Dağ sənə arxa durdu.
Sən haqqa arxalandın,
Haqq sənə arxa durdu.
Sən xalqa arxalandın,
Xalq sənə arxa durdu.
Arxası dağ olanın
Gücü tükənməz dedin
Arxası haqq olanın
Çırağı sönməz dedin.
Arxası xalq olanın
Bayrağı enməz dedin.

Yolumuza nur saçır
Ömür məşəlin sənin
Hələ çiynimizdədir,
Uğurlu əlin sənin.

Bu qurub yaratdığın,
Dövlət yaşadır səni.
Haqqını yaşatdığın
Millət yaşadır səni.
Pillə-pillə ucaldıb,
Kərpic-kərpic qurduğun,
Bu ölkə, bu məmləkət,
Məmləkət boyda sevgi,
Dünya dolusu şöhrət,
Hörmət yaşadır səni.
Sənsiz keçən günlərin,
Hər ayında, günündə,
Hər kəsin həyatında
Hər nəfərin ömründə,
Görünür yerin sənin.
Qədirbilən xalqının,
Səni sevən könlündə,
Sağlığında ucalıb,
Məğrur heykəlin sənin.
Hələ çiynimizdədir
Uğurlu əlin sənin.

***Dursun Musayeva***
***Mədəniyyət. – 2008. – 6 dekabr.***

**6 dekabr 2008-ci il**